**Birliyin fəaliyyət istiqamətləri:**

1. Malların gömrük rəsmiləşdirilməsi üzrə əməliyyatların həyata keçirilməsi istiqamətində, o cümlədən verilmiş səlahiyyət əsasında xarici ticarət iştirakçılarına gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə xidmətlər göstərir;
2. Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satışını təşkil edir və əldə olunmuş vəsaitlərin aidiyyəti üzrə ödənilməsini təmin edir;
3. Nəqliyyat vasitələrinin gömrük ərazisində yerləşdirilmiş yoxlama tərəzilərində çəkilməsini təmin edir;
4. Əsasnaməsinə uyğun olaraq xarici ticarət iştirakçılarına müqavilə əsasında gömrük məsələləri üzrə xidmətlər, o cümlədən təmsilçilik xidmətləri göstərir;
5. Logistika fəaliyyətini həyata keçirir;
6. Gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirən nəqliyyat vasitələrinin dayanacaqlarında nəqliyyat vasitələrinin saxlanılmasını təmin edir;
7. Gömrük fəaliyyətinin həyata keçirilməsinə yardım göstərir;
8. Qanunvericiliklə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərir.